Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# "İslam həmrəyliyi ili"
# və kitabxanalar

BAKI - 2017

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# "İslam həmrəyliyi ili" və kitabxanalar

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI - 2017**

**Tərtibçi**: **L.Əhmədova**

**Redaktor:** **A.Abdullayeva**

**İxtisas redaktoru və**
**buraxılışa məsul:** **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**"İslam həmrəyliyi ili" və kitabxanalar**/tərt.ed. L.Əhmədova; ixtisas red. və bur.məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı, 2017.-40 s.

**© Azərbaycan Milli Kitabxanası, 2017**

**2017-ci ilin Azərbaycan Respublikasında
"İslam Həmrəyliyi İli" elan edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun

qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 yanvar 2017-ci il

## Tərtibçidən

İslam yarandığı vaxtdan günümüzə qədər daim sülhün və həmrəyliyin tərəfdarı olmuş, dilindən, dinindən, milliyyətindən asılı olmayaraqinsanları saflığa,ülviмənəviyyata dəvətetmişdir.

Humanist islami dəyərlərin qorunub saxlanılması və təbliği günün əsas prioritet məsələlərindənbiri hesab olunur. Bu məqsəd-lə də kitabxanalar mütəmadi olaraq dini maarifləndirmə işini həyata keçirməli və islami dəyərləri oxucular arasında təbliğ etməlidirlər.

Təqdim edilən bu metodik vəsaitdə İslam dini, milli-mənəvi dəyərlərimiz, eləcə də dinimizə dövlət qayğısı haqqında qısaca məlumat verilmiş, İslam dininin gənc nəslin tərbiyəsində rolu və kitabxanalarda İslam həmrəyliyi ilə bağlı qarşıda duran vəzifələr və görüləcək işlər haqqında metodik tövsiyələr verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssislərə və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
**E-mail:** metodik@anl.az

# Giriş

Bəşəriyyət yarandığı vaxtdan etibarən insanlar arasında bir sıra dini etiqadlar mövcud olmuşdur. Bunlardan biri də İslam dinidir. VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan İslam diniqısa bir zaman kəsiyində dünyanın böyük bir hissəsində yayılmışdı. Azərbaycanın islamlaşması da erkən islama–639-cu ilə təsadüf edirdi.

Digər dinlərdən fərqli olaraq İslam Azərbaycanda sürətlə yayılmağa və dərin kök salmağa başlamışdır. Əhalinin İslam dinini qəbul etməsi ilə ümumtürk mədəniyyəti ilə İslam mədəniyyətinin sintezindən yaranan, daha da inkişaf etmiş Azərbaycan İslam mədəniyyəti formalaşmağa başlayır.Azərbaycanın orta əsrlər və sonrakı dövrlərdə yaşayıb yaratmış Şeyx Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Əssar Təbrizi, Əhvədi Marağayi, Nəsimi və digər mütəfəkkirləri məhz islam zəminində yetişib böyük şəxsiyyətlər kimi tanınmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ölkədə islama qarşı ayrı-seçkiliyə son qoyuldu, islamçılıq dövlət bayrağında (yaşıl rəng) və ideologiyasında rəsmən təsbitolundu. Hökumətin xarici siyasətində xristian dövlətləri ilə yanaşı, islam dövlətləri ilə də sülh və dostluq münasibətlərinin qurulmasına önəm verilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra qurulan Sovet hökuməti (1920, 28 aprel) ateizmi öz rəsmi ideologiyasının tərkib hissəsi elan etdi.

1920-ci ildəDini etiqad işləri nazirliyi və Şeyxülislamlıq təsisatı ləğv edilmiş,bir çox müsəlman din xadimləri, mütəfəkkir alimlər təqiblərə məruz qalmış, məscidlərin əksəriyyəti bağlanmışdı.Ali təhsil ocaqlarında islama zidd olan ateizm təbliğ olunurdu.Lakin 1944-cü ildə faşist Almaniyasına qarşı mübarizədə dini imkanlardan istifadə etmək məqsədilə Bakıda Zaqafqazi-

ya müsəlmanlarının I qurultayı keçirilmiş, mərkəzi Bakı olmaqla Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradılmışdı. Axund Ağa Əlizadə şeyxülislam seçilmişdi. O idarənin tarixində seçilmiş ilk şeyxülislam idi, ona qədər şeyxülislamlar dövlət tərəfindən təyin edilirdilər.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsində yeni istiqamətlər formalaşmış, dini tolerantlıq daha da inkişaf etdirilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasınauyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaradılmış və qanunvericilik bazası bərqərar olmuşdur.

Belə ki, 21 iyun 2001-ci ildə ümummilli liderin Fərmanı ilə dini etiqad azadlığının təmin edilməsi məqsədilə qanunvericilik aktlarının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən din sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək, dini etiqad azadlığı prinsiplərinin qorunması, həmçinin, dini dözümsüzlük və qarşıdurma meyillərinin qarşısının alınması məqsədilə mühüm tədbirlər həyata keçirilmişdir.

Ulu Öndər dövlət ilə dini qurumlar arasındakı münasibətlərin hüquqi əsaslarını aşağıdakı kimi şərh etmişdir: *"Azərbaycan öz Konstitusiyasına görə, həm də dünyəvi bir dövlətdir. Dövlət ilə dini qurumlar arasındakı münasibətlər Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəaları ilə, "Dini etiqad azadlığı haqqında" qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir. Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik."*

Hazırda ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə yanaşı Qafqaz Müsəlmanları İdarəsi də fəaliyyət göstərir.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) regionda - Azərbaycan, Ermənistan, Gürcüstan Respublikalarında, həmçinin, Rusiya Federasiyasının Şimali Qafqaz (Dağıstan, Çeçenistan, İnquşetiya,

Qaraçay-Çərkəz, Kabarda-Balkar, Adıgey və Şimali Osetiya-Alaniya) ərazisində yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən dini mərkəzdir.Azərbaycan Respublikasında təşkilat məsələlərində İslam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər.

Qafqaz Müsəlmanları İdarəsi öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasının, *"Dini etiqad azadlığı haqqında"* Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, başqa normativ-hüquqi aktların müddəaları və öz Nizamnaməsi əsasında həyata keçirir. 1980-ci ildən etibarən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadədir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik prinsiplərinə sadiq qalan Prezident İlham Əliyevin həyata keçirdiyi düzgün və düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan bölgənin liderinə çevrilməklə yanaşı, eyni zamanda sabitlik və əməkdaşlıq məkanıdır.Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasında və digər qanunvericilikdən irəli gələn əsas müddəaları rəhbər tutaraq multikultural dəyərlərin, birgəyaşayışın, bütövlükdə İslam həmrəyliyinin qorunması ilə bağlı məsələləri öz çıxışlarında daima vurğulamışdır.6 noyabr 2009-cu il tarixində Bakıda ***"Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru"*** mövzusunda keçirilmiş Beynəlxalq konfransda ölkə başçısıcənab İlham Əliyev bu haqda demişdir: *"Azərbaycanda din ilə dövlət ayrıdır. Azərbaycan dünyəvi dövlətdir. Ancaq bununla bərabər, din ilə dövlət birdir. Bu birlik bizi qarşımızda duran amallar ətrafında birləşdirir. O da Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək, Azərbaycanda sabitliyi daim yüksək səviyyədə saxlamaq, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əməli tədbirlər görmək, Azərbaycanda dinlərarası münasibətlərin həmişə müsbət istiqamətdə inkişaf etməsini təmin etmək, Azərbaycanda yaşayan bütün xalqların hüquqlarını qorumaq amallarıdır."*

Prezident İlham Əliyev tərəfindən görülən işlər milli-mənəvi dəyərlərimizin əsas tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsidir. Dövlət başçısının müvafiq sərəncam və tapşırıqlarına əsasən 200-dən çox məscid inşa olunmuş, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.

Ölkəmizin çoxəsrlik milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti də təqdirəlayiqdir. Onun rəhbərliyi altında Heydər Əliyev Fondunun ***"Tolerantlığın ünvanı - Azərbaycan"*** layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid Pir Həsən ziyarətgahında, Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza, Gəncədəki Həzrəti Zeynəb, Buzovna qəsəbəsindəki Cümə və Şamaxıda yerləşən qədim Cümə məscidindəəsaslı təmir və bərpa işləri aparılmışdır.

Son illər ölkəmizin İslam dini, birgəyaşayış, dinlərarası və mədəniyyətlərarası dialoqlara evsahibliyi etməsi dövlətimizin siyasi arenada nüfuzunu daha da artırmaqdadır. Ulu öndər Heydər Əliyev tərəfindən ölkədə əsası qoyulan *"16 Noyabr - Beynəlxalq Tolerantlıq Günü"*, 2007-ci ildə keçirilmiş *"Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər"*beynəlxalq elmi-praktik konfrans, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərinin *"İslam Mədəniyyətinin Paytaxtı"* seçilməsi, həmçinin 2006-cı ildə *"İslamdadözümlülük"* beynəlxalq konfransı, 2011-ci ildən başlayaraq hər iki ildən bir *Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu,* 2012-ci ildə *"İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə toplantısı"*, *"Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi"* I Beynəlxalq Bakı Forumu, 2014-cü ildə *"İslam ənənəli dövlətlərdədini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi"* Beynəlxalq konfransının, beş beynəlxalq humanitar forumun, ötən ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının

VII Qlobal Forumunun və digər mötəbər tədbirlərin keçirilməsi buna əsaslı sübutdur.

Bu gün tam əminliklə deyə bilərik ki, istər İslamaqədər, istərsə də İslam dininin Azərbaycanda yayılmasından sonrakı dövrdə müxtəlif xalqların yaşadığı bu ərazidə uzun illər qarşılıqlı etimada əsaslanan milli-mədəni, dini münasibətlər sisteminin formalaşması, həmçinin çoxəsrlik milli-mənəvi dəyərlərimiz, artıq ənənə halını alan birgəyaşayış və həmrəyliyimiz dünyada islam dini altında nifaq salanlara bir cavabdır.

Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmiş, 15 may 2014-cü il tarixli Sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Dövlət başçısı İlham Əliyevin 2016-cı ili *"Multikulturalizm ili"*, 2017-ci ili *"İslam həmrəyliyi ili"* elan etməsi isə bütün dünyaya dinindən, dilindən və irqindən asılı olmayaraq insanların həmrəy yaşaması üçün bir çağırışdır.Həmçinin bu ilin çox önəmli beynəlxalq tədbiri olan IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi müstəqil Azərbaycan Respublikasının müsəlman dünyasındakı nüfuzundan xəbər verir. Bu beynəlxalq tədbir İslam dünyasındakı mövcud problem və qarşıdurmaların aradan qaldırılması istiqamətində addımların atılmasına və bu sahədə nailiyyətlərin əldə edilməsinə böyük təsir göstərəcək.

# İslam dini və onun təbliğində kitabxanaların rolu

İslam oxumağı, öyrənməyi hər şeydən üstün tutan tək dindir. Digər dünyəvi dinlərlə müqayisə etsək görərik ki, heç bir müqəddəs kitabda "Qurani Kərim"də olduğu kimi elmə, təhsilə, kitaba, mütaliəyə bu dərəcədə önəm verilməmişdir.

Müqəddəs islam dininin müjdəçisi Məhəmməd (s) peyğəmbər də kitabı, mütaliəni hər zaman üstün tutmuş, elm xadimlərinə xüsusi hörmət bəsləmişdir. Onun elmlə bağlı söylədiyi hikmətli kəlamlar bu gün də insanlarda dərin fikirlər, bəşəri hisslər oyadır, yüksək mənəvi-əxlaqı keyfiyyətlər formalaşdırır:***"Alimləri eşidin,çünki onlar dünyanın çırağı, axirətin nurudurlar", "Elmi beşikdən qəbrədək öyrənin", "Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir", "Elm çində də olsa, onun dalınca gedin"*** və s.

Allah bütün bəşəriyyətə, həmçininislam ümmətinə, hər şeydən öncə oxuyub öyrənməyi, məlumat sahibi olmağı əmr etmişdir. Məhz bu səbəblə də islam dininin əxlaqına uyğun olmayan qeyri-islami ideologiyalarla mübarizənin tək yolu maariflənmədən, elm sahibi olmaqdan keçir.

Bu gün İslam mədəniyyətinin, tolerantlığın, multikultural dəyərlərin, həmçinin, dinlərarası və mədəniyyətlərarası dialoqun gücləndirilməsində kitabxanaların da xüsusi rolu vardır. Kitabxanaçılar müqəddəs dinə zidd olan fəlsəfələrin formalaşmaqda olan gənc nəslin milli mənəvi tərbiyəsinə mənfi təsir etməməsi üçün mütəmadiolaraq İslam dininin və adət-ənənələrimizin üstün keyfiyyətlərini onlara çatdırmalıdırlar.

***"İslam həmrəyliyi ili"*** çərçivəsində kitabxanalarda tədbirlər planı hazırlanmalı və buna uyğun olaraq bir sıra işlər həyata keçirilməlidir:

- İlk növbədə kitab fondlarınınİslami dəyərləri təbliğ edən ədəbiyyatla zənginləşdirilməsi;

- İslama dair ədəbiyyatın təbliği məqsədilə kütləvitədbirlərin təşkili;
- Elektron məlumat bazasının yaradılması;
- Virtual kitab sərgiləri;
- Virtual turlar (ekskursiyalar), intellektual oyunlar, ənənəvi və onlayn müsabiqələrin təşkili;
- **"Açıq Kitabxana"da** tədbirlərin təşkili;

Kitabxanaçılar mütəmadi olaraq ***"İslam həmrəyliyi ili"*** ilə bağlı istər ənənəvi, istərsə də müasir təbliğat formalarından istifadə etməklə bir sıra tədbirlər təşkil edə bilərlər. Buraya kitab sərgilərinin hazırlanması, kitab təqdimatları, biblioqrafik icmallar, ucadan oxu saatları, dəyirmi masalar, seminar-müşavirələr, elmi konfranslar, ədəbi-bədii gecələrin keçirilməsi, biblioqrafik siyahılar, bukletlərin çapı, müsabiqələrin təşkili, məlumat bazalarının hazırlanması və s. tədbirləri daxil etmək olar.

Kitabxanalar yeniyetmə və gənclər arasında sağlam dini biliklərə söykənən maarifləndirmə işinin aparılması ilə yanaşı, milli-mənəvi dəyərlərin təbliği istiqamətində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yerlərdə fəaliyyət göstərən nümayəndəlikləri, rayon ağsaqqalları, dini icmaların nümayəndələri, həmçinin, təhsil, səhiyyə və mədəniyyət işçilərinində iştirakıilə dini maarifləndirmə mövzusunda mütəmadi görüşlər keçirə bilərlər.

Keçiriləcək görüşlər qabaqcadan planlaşdırılmış şəkildə hazırlanmalıdır. Dəvət ediləcək qonaqlar, çıxışlar müəyyənləşdirilməli, mövzu ilə bağlı kitabxananın fondunda olan ədəbiyyatdan ibarət sərgi hazırlanmalıdır. Kitabxanaçıgiriş olaraq xalqımızın zəngin milli-mənəvi dəyərləri, həmin dəyərlərin xüsusilə gənclər arasında təbliğinin əhəmiyyəti, həmçinin, kitabxananın bu istiqamətdə həyata keçirdiyi işlər barədə məlumat verməlidir. Daha sonra qonaqların İslam dini, onun tarixi, aşıladığı müsbət əxlaqi keyfiyyətlər, dini bayramlar barədə çıxışları dinlənilir, oxucuların təqdim etdiyi suallar cavablandırılır.

Tədbirdə islam dini ilə bağlı qısa sənədli filmlər, kitabxana tərəfindən hazırlanmış elektron məlumat bazası təqdim edilə bilər.

Uşaq və gənclər arasında dini və milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı kitabxanaçıların həyata keçirdiyi işlərdən biri də özündə geniş informasiyanı əks etdirən **elektron məlumat bazasının** hazırlanmasıdır.

Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq oxucuların İslam dini, həmrəyliklə bağlı informasiyanı zaman və məkan məhdudiyyəti olmadan ala bilmələri üçün kitabxanalar öz veb-saytlarında xüsusi bölmələrlə məlumat bazalarını təqdim edə bilərlər. ***"Rəsmi sənədlər","İslam dini haqqında maraqlı məlumatlar", "İslam dininin yaranma tarixi", "İslamda mövcud olan dini bayramlar", "Dünya klassikləri İslam dini haqqında", "İslam sülh və həmrəylik dinidir", "Toletantlıq", "İslamda ədəb qaydaları", "Qurani Kərimdə sülh və təhlükəsizlik məsələləri", "Bəşər sivilizasiyasında İslamın rolu", "Azərbaycanda dini abidələr", "Kitab və dövri mətbuat nümunələri", "Görkəmli şəxslərin fikirləri"*** və digər mütəmadi yenilənən maarifləndirici bölmələr hətta kitabxanaya gəlmə imkanı olmayan fiziki qüsurlu oxucular üçün də olduqca önəmlidir.

Bununla yanaşı kitabxanalar saytlarında bu mövzuda oxucuları maraqlandıran müəssisə və təşkilatların saytlarına keçid etmələri üçün ***"Faydalı keçidlər- linklər"*** bölməsi yarada bilərlər.

Gənc nəslin dini maarifləndirilməsi sahəsində ənənəvi kitab sərgiləri ilə yanaşı müasir dövrün tələbi olan **virtualkitab sərgiləri** də hazırlamaq mümkündür.

Virtual kitab sərgiləri ənənəvi kitab sərgilərindən daha effektivdir desək yanılmarıq. Çünki, bu tip sərgilər canlı, dinamik və rəngarəng olduğu üçün özünə daha çox oxucu cəlb edə bilir. Virtual sərgilərin digər üstünlüyü də ondadır ki, qısa zamanda sərginin tərtibatını dəyişmək, yeni kitabları daha tez daxil etmək olar.

Virtual kitab sərgilərini bir neçə tərtibatda təşkil etmək mümkündür: ***toplu halında olan kitabların sərgisi, səsli mətnlərin və ya musiqinin müşayəti ilə kitablar haqqında qısa annotasiyaların səsləndirilməsi və s.***

Virtual kitab sərgiləri necə yaradılır: bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır.

- Titul slayd: sərginin başlığı;

**Nümunə:**

**"İslam dostluq və həmrəylik dinidir"** ***virtual kitab sərgisi***

- **Slayd 2:** kitabxananın adı;
- **Slayd 3:** mündəricat;
- **Slayd 4:**kitabların şəkilləri, biblioqrafik təsviri və qısa annotasiyaları ilə birgə nümayişi (nümayiş zamanı annotasiyalar səsli şəkildə və ya istənilən bir musiqinin müşaiyəti ilə də təqdim oluna bilər);

*Burada kitabxanaçı İslam dini, onun tarixi, Azərbaycanda yayılması, orta əsrlərdə İslam, sovet dönəmində İslam, müstəqillik illərində İslam, dinimizə dövlət qayğısı, tolerantlıq və digər mövzulara aid kitabları şəkilləri (üz qabığı) və haqqında annotasiyaları ilə birgə nümayiş etdirə bilər. Nümayiş zamanı annotasiyalar səsli şəkildə və ya istənilən bir musiqinin müşayiəti ilə də təqdim oluna bilər.*

*Bu slaydda həmçinin dövri mətbuat bölməsi yaradıb qəzet və jurnallarda İslam dini ilə bağlı məqalələri də yerləşdirmək olar.*

- **Slayd 5**: kitabı oxumaq və ya daha yaxından tanış olmaq üçün kitabxananın ünvanı, əlaqə telefonları və e-mail ünvanı verilir.

*Ünvan ___________tel. _____, e mail_____*

***"İslam həmrəyliyi ili"*** çərçivəsində kitabxanaçılar ölkəmizin dini və tarixi abiələrinə **virtual turlar (ekskursiyalar)** təşkil edə bilərlər.

Virtual turların təşkili zamanı görüntü, subtitrlar, eyni zamanda səs də nəzərə alınmaqla həmin rayon (şəhər) və ya bütöv

bir iqtisadi zonanın tarixi-memarlıq, arxeoloji, dini abidələri, ziyarətgahları, məscidləri, türbələri haqqındaməlumatlar daxil edilməlidir.

**Nümunə**

**“Azərbaycan tarixi abidələr diyarıdır”**

***Virtual ekskursiya***

***(Şamaxı rayonu üzrə)***

Virtual səyahət üçün aşağıdakıları daxil etmək olar:

- *Şamaxı şəhəri (ümumi görüntü);*
- *Şamaxı şəhərinin qədim yaşayış məskənləri (islama qədər);*
- *Tarixi arxeoloji və memarlıq abidələri;*
- ***Qalalar:***

*“Buğurt” qalası, “Fit” qalası, Gülüstan qalası*

- ***Pirlər:***

*Çarhan piri, Dədəgünəş piri, (Dədəgünəş kəndi), Aşağı Seyid Əli piri (Qarabazar məscidi), Seyid Hüseyn piri, Yemişan piri (Adnalı kəndi), Qız piri (Məlikçobanlı kəndi), Əzizağa (Quşçu kəndi), Baba Xələf piri (Quşçu kəndi),Şehid piri və s.*

- ***Ziyarətgahlar:***

*İmamzadə ziyarətgahı (Şamaxı şəh.), Pirsaat ziyarətgahı (Mərzəndiyyə kəndi), Şah Xəndan ziyarətgahı, Qoca Baba (Quşçu kəndi), Şeyx Abdurrəhman ziyarətgahı (Çaylı kəndi) və s.*

- ***Türbələr:***

*Qoç baba türbəsi, Şeyx Balahəmid türbəsi, Diribaba türbəsi, Kələxana türbələri, Novruz türbəsi, Pir Mərdəkan türbəsi, Şeyx Əyyub Baba türbəsi, Yeddi Günbəz türbələr kompleksi (Şəhriyar qəsəbəsi) və s. ,*

- ***Məscidlər:***

*Göylər məscidi, Şamaxı Cümə məscidi.*

Beləliklə, video fayllar, çarxlar, slayd təqdimatlar vasitəsilə keçirilən video turlar oxuculara respublikamızın şəhər və rayonla-

rının dini abidə və ziyarətgahlarını internet vasitəsi ilə günün istənilən vaxtı onlayn virtual səyahət edə bilmə imkanı yaradacaqdır.

***İntellektual oyunlar*** - məktəbyaşlı oxucular arasında dini maarifləndirmə zamanı **bilik yarışmalarının** keçirilməsi də məqsədəuyğun olardı. Ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri arasında belə bilik yarışlarının keçirilməsi xüsusilə yuxarı sinif şagirdlərinin İslam dini ilə bağlı intellektual səviyyələrinin artırılmasına yardım etmiş olacaqdır.

İntellektual bilik yarışlarının keçirilməsi üçün kitabxana öncədən elan verməli, iştirakçıları, münsiflər heyyətini, yarışın şərtlərini müəyyən etməli, yeri və tarixi barədə məlumat verməlidir.

Münsiflər heyətində Regional Təhsil, Regional Mədəniyyət və Turizm İdarəsinin nümayəndələri, rayonun din xadimləri, tarix müəllimləri, kitabxanaçılar ola bilər.

**Nümunə:**

**“İslam – bildiklərimiz və bilmədiklərimiz”**

***Fərdi intellektual bilik yarışması***

***Elan***

*10 iyul və 15 iyul 2017-ci il tarixlərində __________ rayon (şəhər) Mərkəzi Kitabxanasında _________ rayon (şəhər) Regional Təhsil İdarəsi və ________rayon (şəhər) Mədəniyyət və Turizm İdarəsi ilə birgə təşkilatçılığı ilə**“İslam həmrəyliyi ili”** çərçivəsində VIII sinif şagirdləri arasında **“İslam – bildiklərimiz və bilmədiklərimiz”**mövzusunda fərdi intellektual bilik yarışması keçiriləcəkdir.*

*Yarışın keçirilməsində əsas məqsəd gənclər arasında milli-mənəvi dəyərlərimizin yayılması, milli-mədəni irsimizin ayrılmaz hissəsi olan İslam dini haqqında maarifləndirmə işlərinin aparılması və bu sahəyə diqqətin artırılmasıdır. Yarış 2 mərhələdən - seçim və final mərhələlərindən ibarət olacaqdır.*

*Seçim mərhələsi 10 iyul 2017-ci il, final mərhələsi isə 15 iyul 2017-ci il tarixlərində baş tutacaqdır.*

*Yarışmada iştirak etmək istəyənlər _________ e-mail ünvanında onlayn qeydiyyatdan keçə bilərlər. Yarışmanın qalibləri diplom və hədiyyələrlə təltif olunacaqlar.*

*Ünvan: ___________ rayon (şəhər) Mərkəzi Kitabxanası (yerləşdiyi ünvan yazılmalıdır)*

*Əlaqə: tel.:____; url:_____; e-mail:_____*

***Yarışmanın tələb və şərtləri:***

**Seçim mərhələsi:**

- *Seçim mərhələsində yalnız qeydiyyatdan keçən şagirdlər iştirak edə bilərlər;*
- *Bu mərhələdə bir şagird yalnız dəfə iştirak edə bilər;*
- *Bütün iştirakçılara kitabxana tərəfindən mövzuya hazırlıq üçün kitablar verilir;*
- *Seçim mərhələsində finala çıxmaq uğrunda mübarizə aparılacaqdır;*
- *Bu mərhələdə iştirakçıya 5 sual, cavablandırmaq üçün isə 10 dəqiqə vaxt veriləcəkdir. Təqdim olunan suallardan 4 və 5-nə düzgün cavab verən iştirakçı finala vəsiqə qazanacaqdır;*
- *Əgər iştirakçılar arasında xal bərabərliyi olarsa münsiflər tərəfindən həmin iştirakçıya növbəti suallar veriləcəkdir;*
- *Seçim mərhələsində bir sual 1 xal ilə qiymətləndirilir.*

***Final mərhələsi:***

- *Bu mərhələdə hər bir iştirakçı ilə fərdi olaraq yarış davam etdiriləcəkdir;*
- *Suallar iştirakçılara 4 variantda təqdim olunacaqdır;*
- *Təqdim olunan suallar aşağıdakı bölmələri əhatə edəcəkdir:*

✓ ***İslam tarixi bölməsi.*** *Azərbaycanda islamın yayılması, Xürrəmilər hərakatı, Orta əsrlərdə Azərbaycanda islam, Hürufilik hərakatı, XVII-XIX əsrlərdə Azərbaycanda İslam. Cümhuriyyət dönəmində İslam. Sovet hakimiyyəti illərində İslam;*

- ✓ *İslam dini və milli-mənəvi dəyərlərimiz;*
- ✓ *İslam və digər səmavi dinlər;*
- ✓ *İlk dini alimlərimiz, şeyxülislamlarımız;*
- ✓ *Dini bayramlarımız;*
- ✓ *Müstəqillik illərində İslam;*
- ✓ *Dinimizə dövlət qayğısı;*
- ✓ *Ulu öndərin İslam dini ilə bağlı söylədikləri;*
- ✓ *İslam həmrəyliyi oyunları;*

- *Bu mərhələdə iştirakçı yuxarıdakı bölmələrdən sual seçmə hüququna malikdir.*
- *Final mərhələsində iştirakçıya 10 sual təqdim olunacaqdır. Sualların hamısına doğru cavab verən iştirakçı I yer, 9 və 8 suala cavab verən iştirakçı II yer, 7 və 6 suala cavab verən iştirakçı isə III yerin qalibi elan olunacaqdır.*
- *Yarış müddətində hər bir iştirakçıya yalnız 1 dəfə səhv etmək hüququ verilir.*
- *İştirakçılar tərəfindən qayda pozuntusu qeydə alınarsa, həmin iştirakçı oyundan uzaqlaşdırılacaqdır*.

Qeyd edək ki, kitabxanalarda belə intellektual oyunlarkeçirilərkən mövzu ilə bağlı sərgi də hazırlamaq olar. Belə oyunların təşkili uşaq, yeniyetmə və gənclərdə islam dini barədə məlumatların artmasına, mənəvi dəyərlərin təbliğinə yönəldilmişdir.

Fərdi intellektual oyunlarla yanaşı kitabxanalarda **ailəviintellektual yarışların təşkili**də maraqlı olardı. Valideynlərin öz övladları ilə komanda şəklində yarışması yalnız bir şəxsin deyil bötöv bir ailənin maariflənməsinə yardım etmiş olacaqdır.

Komandalar şəklində yarışan ailələrdən daha çox və doğru cavab verən qalib olacaqdır. Yarışda iştirak edən lakin qalib olmayan iştirakçı ailə isə həvəsləndirici hədiyyələrlə təltif oluna bilər.

***Müsabiqələr***-*"İslam həmrəyliyi ili"* çərçivəsində kitabxanaçılar məktəbyaşlı uşaqlar, yeniyetmə və gənclər arasında dini

maarifləndirici mövzuda rəsm, foto, əl işləri, inşa yazı, oxu müsabiqələri keçirə bilərlər.

Müsabiqələrin keçirilməsində əsas məqsəd uşaq və gənclərin, eləcə də geniş əhali kütləsinin bu sahədə maarifləndirilməsini təmin etməklə yanaşı onların bacarıqlarını üzə çıxarmaq və bu sahəyə marağını artırmaqdır.

***İnşa müsabiqələri***-ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilə bilər. Müsabiqə zamanı kitabxanaçılar təhsil müəssisələri ilə birlikdə müsabiqənin mövzusunu, daha sonra isə müsabiqədə iştirak edəcək şagirdlərin sayını müəyyənləşdirməlidirlər.

Müsabiqəyə bir qayda olaraq əvvəlcədən müəyyən olunmuş mövzuya uyğun inşalar və yaxud da sərbəst mövzuda yazılmış inşalar təqdim oluna bilər.

İnşa müsabiqələri bir və ya bir neçə mərhələdə - məktəb səviyyəsində, rayon səviyyəsində və regionlararası -keçirilə bilər.

Müsabiqəyə təqdim olunan inşaların məktəb və kitabxanaçılardan yaradılmış münsiflər heyəti tərəfindən müəyyən olunmuş meyarlar əsasında yoxlanılması tövsiyə olunur. Bu zaman mövzunun tam əhatə olunması, tərbiyəvi əhəmiyyəti, mövzuya şəxsi münasibət və s. xüsusiyyətlər nəzərə alınmalıdır.

Müsabiqələri təşkil edən zaman əvvəlcə müsabiqənin keçirilməsi haqqında elan edilməli, müsabiqənin şərtləri, keçirildiyi tarix və ünvan göstərilməlidir.

**Nümunə:**

**“İslam olduğu kimi”**
***İnşa müsabiqəsi***
***Elan***

*_____ rayon (şəhər) Mərkəzi _______ rayon (şəhər)_ saylı orta məktəblə birgə məktəbin 5-10-cu sinif şagirdləri arasında* ***“İslam həmrəyliyi ili”*** *çərçivəsində* ***“İslam olduğukimi”*** *mövzu-*

*sunda 2017-ci il 5 apreldən 5 may tarixinədək davam edəcək inşa müsabiqəsi elan edir.*

***Müsabiqənin tələb və şərtləri:***

- *İnşa yazısı onun məzmununu əks etdirən adı daşımalı, mövzu müfəssəl əhatə olunmalıdır;*
- *İnşa özündə İslamın tarixi, onun yüksək keyfiyyətləri, insanları sülh və həmrəyliyə dəvət etməsi haqqında ətraflı məlumatı əks etdirməlidir;*
- *İnşa yazısının həcmi 5 səhifədən artıq olmamalıdır;*
- *İnşa yazısı iştirakçının seçimi ilə Azərbaycan, rus, ingilis və s. dillərdə hazırlana bilər;*
- *İnşanın titul vərəqində (və ya sonunda) müsabiqədə iştirak edənin soyadı, adı, atasının adı, təhsil aldığı orta məktəbin nömrəsi, sinfi və əlaqə telefonları qeyd olunmalıdır;*

*Müsabiqədə iştirak etmək üçün aprel ayının 1-dən gec olmayaraq _____ rayon (şəhər) Mərkəzi Kitabxanasında və ya kitabxananın e-mail _____ ünvanında onlayn qeydiyyatdan keçmək lazımdır.*

*Müsabiqənin qalibləri münsiflər heyəti tərəfindən seçilərək qiymətləndiriləcəkdir. Müsabiqədə I, II və III yerləri tutmuş qaliblər diplom və mükafatlarla, müsabiqədə fərqlənən şagirdlər isə həvəsləndirici hədiyyələr ilə mükafatlandırılacaq.*

*Ünvan: ___________ rayon (şəhər) Mərkəzi Kitabxanası (yerləşdiyi ünvan yazılmalıdır)*

*Əlaqə: tel.:____; url:_____; e-mail:_____*

Bundan əlavə kitabxanaçılar*"İslamda böyüklərə hörmət", "Müqəddəs Orucluq ayı", "Bəşəriyyətin bəlası narkomaniya və İslam", "İslam dostluq və qardaşlıq dinidir", "Hikmət xəzinəsi - Qurani Kərim"*və s. mövzularda da inşa yazı müsabiqələri keçirə bilərlər.

**Rəsm müsabiqələrinin** təşkili uşaq, yeniyetmə və gənclərin İslam dini və bu dindən irəli gələn mənəvi, əxlaqi keyfiyyətlərlə zənginləşməsində böyük rol oynayacaqdır. ***"İslam uşaqların***

***gözü ilə", "Dini abidələrimiz", "İslamda qadın azadlığı"*** və s. adlarda rəsm və ya foto müsabiqə keçirmək olar.

Burada da kitabxanaçılar regionda fəaliyyət göstərən rəsm məktəbləri, yaradıcılıq dərnəkləri ilə birgə bir sıra rəsm müsabiqələri təşkil edə bilərlər. Bunun üçün kitabxanalar bir ay öncədən həm kitabxana daxilində, həm də kitabxananın veb saytında, sosial şəbəkələrdə, yerli qəzetlərdə elan verməli, müsabiqənin şərtləri açıqlanmalıdır.

***Müsabiqənin şərtləri:***

- *Müsabiqəyə daxil olan rəsm işləri mövzuya uyğun olmalıdır;*
- *Rəsm işlərinin ölçüləri 40sm x 60sm olmaqla (çərçivəsiz), akvarellə (və yaxud fırça, qara qələm, kömür və s.) çəkilməlidir;*
- *Rəsmlərin arxasına asılqan və ya ilgək (petlə) bərkidilməlidir;*
- *Rəsmin arxa tərəfində aşağı hissədə sağda ayrıca ağ kağızda, 9x12 ölçüdə lövhəyə işin adı, yerinə yetirilmə texnikası, müəllifin adı, soyadı, doğum tarixi, təhsil aldığı məktəb, sinif, və ya işlədiyi yer, ünvan və əlaqə nömrəsi yazılmalıdır;*
- *Müsabiqədə ümumtəhsil məktəblərin V-XI sinif şagirləri və 25 yaşınadək olan gənclər iştirak edə bilərlər;*
- *Müsabiqənin qalibləri xüsusi diplom və hədiyyələrlə təltif olunacaqdır.*

Daha sonra məktəbli və gənclərdən rəsm nümunələri toplanmalı, növbəti mərhələdə isə müsabiqəyə təqdim edilmiş işlərin qiymətləndirilməsi üçün münsiflər heyəti təşkil edilməlidir.

Münsiflər heyətinin tərkibi peşəkar rəssamlardan,rayon (şəhər) İcra Hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, rayon (şəhər) Regional Təhsilİdarəsi,rayon (şəhər) Regional Mədəniyyət və Turizm İdarəsininnümayəndələri, və eləcə də din xadimlərindənibarət ola bilər.

Tədbir öncəsi iştirakla bağlı müvafiq qurumlara rəsmi dəvətnamə göndərilməlidir. Keçirilən tədbirin işıqlandırılması üçün tədbir haqqında press-reliz hazırlanmalıdır.

Yaradılmış münsiflər heyəti tərəfindən ilk 3 yer müəyyən olunduqdan sonra sərgiyə təqdim edilmiş, lakin qalib olmamış digər işlərin sahibləri isə həvəsləndirici diplomlarla təltif oluna bilərlər.

***Onlayn müsabiqələr*** -Uşaq və yeniyetmələrdə İslam mədəniyyətinin, həmrəy yaşam tərzinin formalaşdırılması, həmçinin, bu sahədə intellektual səviyyələrinin yüksəldilməsi məqsədi ilə həyata keçirilən digər layihələrdən biri də internet vasitəsilə ***onlayn müsabiqələrin***təşkilidir. Bu tip müsabiqələri bir neçə farmatda keçirmək mümkündür. Buraya ***"Ən fəal oxucu", "Ən yaxşı icmalçı", "Ən maraqlı təqdimat"*** və s. aid etmək olar.

Onlayn müsabiqələr ənənəvi müsabiqələr kimi bir və ya bir neçə mərhələdən ibarət ola bilər. ***"Ən fəal oxucu"***müsabiqəsində ilk növbədə mövzu müəyyən olunmalı, daha sonra həmin mövzuya aid kitabların siyahısı sosial şəbəkədə oxuculara təqdim olunmalıdır. Təqdim olunan kitablardan sayca daha çox oxuyan oxucu isə müsabiqənin qalibi hesab olunur. Qalib oxucu kitabxana tərəfindən mükafatlandırılır. Mükafatlandırma zamanı göstərilən əsərlərin şagirdlər tərəfindən həqiqətən mütaliə olunduğunu dəqiqləşdirmək üçün işçi qrupu da yaradılır. Yaradılan qrup tərəfindən bu əsərlər üzrə müvafiq suallar hazırlanır və bu suallar əsasında yoxlama aparmaq mümkündür.

***"Ən fəal oxucu"*** onlayn müsabiqəsində kitabxanaçılar aşağıdakı mövzularda müsabiqə təşkil edə bilərlər:

*"İslamın ən güclü silahı – elmdir", "İslam mövhumatçılıq dini deyil", "Klassiklərimiz İslam dini haqqında", "Böyüyə hörmət, kiçiyə diqqət" və s.*

***"Ən yaxşı icmalçı"*** onlayn müsabiqəsi də bütün yaş qrupuna daxil olan oxucuların dini maariflənməsinə yardım etmiş olacaqdır. Bu müsabiqədə müəyyən mövzu ətrafında deyil, konkret kitab haqqında fikir mübadiləsi aparılır. Onlayn icmal keçirmək üçün, sosial şəbəkələrdə müvafiq qrup, səhifə və ya bloq yaratmaq lazımdır. Müsabiqə iştirakçıları öncədən onlayn qeydiyyatdan keçərək iştirakçı olurlar. Müsabiqədə kitaba ən dolğun icmal

verən oxucu qalib hesab olunur. Onlayn müsabiqə zamanı kitabxanaçı oxucuya icmal üçün son dövrdə nəşr olunmuş kitabları (məsələn: *N.Məmmədovun "İslamda Vətən və dövlət sevgisi", N.Zeynəddinin "Müsəlman kimliyi" və s.)* təqdim etməlidir.

Kitabxanalarda ***"İslam həmrəyliyi ili"*** çərçivəsində həyata keçirilən digər tədbirlərdən biri də ***"Açıq Kitabxana"***da maarifləndirici tədbirlərin təşkilidir.

Qeyd edək ki, 2016-cı ilin iyul ayında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi əsasında gənclərin və bütün vətəndaşların fasiləsiz və sərbəst mütaliəsini təmin etmək məqsədilə, Milli Kitabxananın nəzdində həftənin bütün günləri, 24 saat ərzində xidmət göstərən "Açıq Kitabxana" yaradılmışdır."Açıq Kitabxana"nın fəaliyyəti təqdirəlayiq hesab edildiyindən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyasının 14 oktyabr 2016-cı il tarixli 7/1 nömrəli qərarı ilə onun iş təcrübəsinin regionlarda da tətbiq edilməsi planlaşdırılmışdır.

Bu məqsədlə də kitabxanaçılara ***"İslam həmrəyliyi ili"***çərçivəsində bölgələrimizdə, xüsusilə yay aylarında fəaliyyət göstərən *"Açıq Kitabxana"*da mütəmadi olaraq gənclərin, eləcə də bütün yaş qruplarının maariflənməsinə xidmət edəcək kütləvi tədbirlərin təşkilitövsiyə olunur:

- ***Sərgilər***

Kitabxanalar ***"İslam həmrəyliyi ili"***çərçivəsində "Açıq Kitabxana"da bölgələrimizdə qorunub saxlanılan qədim tarixə malik ***"Qədim Qurani-Kərim nümunələri"*** adlı sərgi hazırlaya bilərlər.

Qədim tarixə malik olan və bu gün də şəxsi kitabxanalarında qorunub saxlanan qədim əlyazma kitablar, Qurani-Kərim nümunələri, təfsir kitabların nümayişi sərgiyə baxanlarda böyük maraq oyadacaqdır. Belə sərgilər bir rayon (şəhər) daxilində deyil, eyni zamanda region daxilində də təşkil oluna bilər.

Nümunə üçün deyə bilərik ki, 2016-cı ildə Milli Kitabxanada Azərbaycanın müxtəlif bölgələrindən toplanan Qurani Kərim kitablarından ibarət ***"Qədim tarixi Quran Kitabları"*** adlı sərginin açılış mərasimi olmuşdur. Mədəniyyət və Turizm Nazirliyi, Milli Kitabxana və Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə baş tutan sərgidə Azərbaycanın müxtəlif bölgələrindən illər ərzində toplanan 320 dən artıq Quran kitabı nümayiş olunurdu. Onların içərisində yaşı 800-ə yaxın olan nadir Quran nümunələri ilə yanaşı, eyni zamanda Şuşa şəhərindən olan Quran kitabları da yer alırdı.

Açıq Kitabxanada həmçininmilli-mənəvi dəyərlərə malik əşyalar, tarixi və dini əhəmiyyətli rəsm əsərləri, dini mövzuda toxunulmuş xalçaların sərgisinidə hazırlamaq olar.

- ***Fotosərgilərin nümayişi***

Bu gün Azərbaycan dünyada aparıcı İslam ölkələrindən birinə çevrilib. Buna ən bariz nümunə 2017-ci ildə keçiriləcək bütün dünya müsəlmanları arasında birlik və həmrəyliyin möhkəmlənməsinə kömək edəcək ***"IV İslam Həmrəyliyi Oyunları"***na ölkəmizin ev sahibliyi etməsidir.

Bu münasibətlə də kitabxanalar ***"Azərbaycan islam oyunları paytaxtıdır"*** mövzusunda Açıq Kitabxanada **fotosərgi** keçirə bilərlər.

**Nümunə**

***"Azərbaycan islam oyunları paytaxtıdır" fotosərgi***

*Elan*

*06 oktyabr 2017-ci il tarixində saat 11:00-da ______ rayon (şəhər) Mərkəzi Kitabxanası, Gənclər və İdman Nazirliyinin ____ rayon nümayəndəliyi ilə birgə ____ rayon Mərkəzi Kitabxanasında (Açıq Kitabxanada) "**Azərbaycan İslam oyunları paytaxtıdır"** mövzusunda **"Azərbaycanda idman və mədəniyyət obyektləri"** və **"Azərbaycanda keçirilmiş idman***

***yarışları"****nominasiyalarıüzrə__ ___ , ___ ___, ___ ___ (ad və familiyalar) fotoları nümayiş olunacaqdır.*

*Sərgi 3 gün davam edəcəkdir.*

*Ünvan: __________ rayon (şəhər) Mərkəzi Kitabxanası (yerləşdiyi ünvan yazılmalıdır)*

*Əlaqə: tel.:____; URL:_____; e-mail:_____*

- ***Guşələrin yaradılması***

Açıq Kitabxanada ***"İslam həmrəyliyi ili" və "IV İslam Həmrəyliyi Oyunları"*** ilə bağlı guşələr hazırlamaq olar. ***"İslam dostluq və qardaşlıq dinidir"*** adlı guşədə İslam dini ilə bağlı uşaq, yeniyetmə və gənclərə maraqlı olan kitabların toplanması tövsiyə olunur. Açıq səma altında həmçinin ***"İslam dövri mətbuatda"*** adlı guşə də yaradıla bilər. Buraya da "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Mədəniyyət", "Cəmiyyət və din", həmçinin həmin rayonun yerli qəzeti, eləcə də "Dövlət və din", "Mədəniyyət.az" və s. jurnalları daxil etmək olar.

- ***Dərnəklərin təşkili***

Ətraf mühit və təbiətin qorunması məsələsi bütün dinlərin, xüsusilə də İslam dininin daima diqqət mərkəzindədir. Məhz bu baxımdanda uşaq, yeniyetmə və gənclərimizə daima ətraf mühitə qayğı, təbiətdən ədalətlə və vicdanla istifadə etməyi, təbiətə dostcasına, qayğı ilə yanaşmağı, habelə heyvanlarla da xoş rəftarın savab sayıldığı və digər üstün keyfiyyətlər aşılanmalıdır.

Kitabxanaçılar gənc nəsildə ekoloji tərbiyə və mədəniyyətin formalaşması üçün yay aylarında Açıq Kitabxanada ***ekoloji dərnəklər*** təşkil edə bilərlər. *"İslam və ətraf mühit", "Ekoloji tərbiyə və İslam dini", "Yaşıl aləm", "Heyvanlar insanların dostudur", "Təbiət dostları"*və s. adlı dərnəklər gənc nəslin ekoloji mədəniyyətinin fasiləsiz inkişaf etdirilməsində, həmçinin onlarda sərbəst işləmək qabiliyyətinin inkişafında, ətraf mühiti dolğun qavramaqda, ekoloji dünyagörüşlərinin formalaşmasında xüsusi rol oynayacaqdır.

Ekoloji dərnəklər bir neçə istiqamətdə fəaliyyət göstərə bilər: ***çalışmalar, ekoloji oyunlar, bilik və bacarıqların təcrübədə***

***tətbiqi, ekoloji breyn-rinqlər, ekologiya rəsmlərdə, ekologiya ilmələrdə*** və s.

Dərnək üzvlərindən ibarət *"gənc ekoloqlar"* ətraf mühitin qorunmasında ekoloji mərkəzlərin mütəxəssislərinin, din xadimlərinin köməyindən faydalana bilərlər.

Dərnəklərdə həmçinin gənclərimizdə ekoloji mədəniyyətin daha da yüksək səviyyədə inkişaf etməsi üçün ***"İslam və təbiət"*** mövzusunda maariflendirici plakatlar, bukletlər, video çarxlar hazırlaya bilərlər.

Xalqımızın sahib olduğu humanist keyfiyyətlərin, milli əxlaqi dəyərlərin yeniyetmə və gənclər arasında təbliği zamanı kitabxanaçılar ***"Könüllü oxucu qrupu"nun*** köməyindəndə yararlana bilərlər. Qeyd edək ki, bu sahədə könüllülər fəal oxuculardan yeniyetmə və gənclərdən, xüsusilə də, yuxarı sinif şagirdləri, universitet tələbələrindən təşkil oluna bilər.

***"Könüllü oxucu qrup"***u İslam dini, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimizlə bağlı qısa məlumat xarakterli kitabçalar, bukletlər, bu sahədə yeni çap olunmuş kitablar haqqında informasiya vərəqələri hazırlayıb yaxın ərazilərdə evlərə paylaya, öz oxuduqları maraqlı kitablar haqqında oxuculara məlumat verə bilərlər.

Kitabxanaçılar həmçinin könüllülərlə birgə kitabxanaya gələ bilməyən yaşlı və fiziki qüsurlu şəxslərə *"Böyüklərə hörmət dinimizdəndir", "Uşaqlara qayğı gələcəyə qayğıdır", "Böyüklərə hörmət etmək hamımızın borcudur"* və s. layihələrlə evdə oxu saatları keçirə bilərlər.

Fərdi oxu zamanı kitabxanaçı xidmət edəcəyi şəxsləri öncədən təyin etməli və onların marağına uyğun bir neçə kitab seçməlidir. Daha sonra həmin şəxslərlə razılaşdırılmaqla müəyyən olunmuş vaxtlarda fərdi oxunu keçirmək olar.

# Əlavələr

**Əlavə 1**

## IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyasında IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul edilmiş 2013-cü il 24 iyul tarixli qərar Azərbaycanda məmnunluqla qarşılanmışdır. Bu mühüm hadisə bir daha nümayiş etdirir ki, Azərbaycan Respublikası dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır.

İslam aləmində özünəməxsus mövqeyə malik Azərbaycanın mövcud potensialı və gerçəkləşdirdiyi genişmiqyaslı müasir infrastruktur layihələri idman oyunlarının sağlam rəqabət və dostluq şəraitində təşkili üçün əlverişli zəmin yaradır.

Uğurla başa çatmış ilk Avropa Oyunlarının ardınca eyni məkanda növbəti İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların keçirilməsi Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun idman şöhrətini artıracaq, beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2017-ci ilin may ayında Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Mehriban Əliyeva – Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri

**Təşkilat Komitəsinin üzvləri**

Hacıbala Abutalıbov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü

Azad Rəhimov – Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Respublikası Milli OlimpiyaKomitəsinin vitse-prezidenti, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü

Elmar Məmmədyarov – Azərbaycan Respublikasının xarici işlər naziri

Şahin Mustafayev – Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Ramil Usubov – Azərbaycan Respublikasının daxili işlər naziri

Ziya Məmmədov –Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü

Oqtay Şirəliyev – Azərbaycan Respublikasının səhiyyə naziri

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov – Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri

Əli Əsədov – Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi,Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini

Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri,Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Aydın Əliyev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Cahangir Əsgərov – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti,Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü

Rövnəq Abdullayev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Balababa Rzayev – "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Çingiz Hüseynzadə – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti,Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü

Xəzər İsayev – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Milli Olimpiya Komitəsinin üzvü

Ağacan Abiyev – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Baş katibi,Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü

Anar Ələkbərov – Heydər Əliyev Mərkəzinin direktoru

Fərhad Hacıyev – Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru

Könül Nurullayeva – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Beynəlxalq Əlaqələr İdarəsinin rəisi,Bakı 2017 İslam Həmrəyliyi Oyunlarının İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyəKomitəsindəki nümayəndəsi (Təşkilat Komitəsinin katibi)

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə IV İslam Həmrəyliyi

Oyunlarının keçirilməsinə dair xüsusi tədbirlər planını hazırlayıb Təşkilat Komitəsinə təqdim etsin.

3. Təşkilat Komitəsi IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 sentyabr 2015-ci il

**Əlavə 2**

## Görkəmli şəxsiyyətlər İslam dini haqqında

Müstəqil Azərbaycan dövlətinin həyatında çox əlamətdar hadisədir ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir və uzun illərin həsrətindən sonra ölkəmizin istənilən vətəndaşı tamamilə sərbəst olaraq İslam aləminin müqəddəs yerlərini ziyarət edə bilir.

***

Azərbaycanda islam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycan islam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanlar - Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətlər dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişdir. Biz bunlarla fəxr edirik. Biz Azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

***

Gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt imkan verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək, İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini və mənəviyyatını zədələsinlər.

***

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq, həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.

***

İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allahtəalanın buyurduğu, bizim yolumuzdur.

***

Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan müstəqil dövlət kimi islam həmrəylinə töhfəsini verir. Bütün müsəlman ölkələri ilə biz çox mehriban münasibətlər qurmaq əzmindəyik. İslam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq.

***

İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük-tolerantlıq dinidir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, öz ənənələrimizə, öz köklərimizə böyük hörmətlə yanaşırıq. Biz öz mədəni, dini və tarixi irsimizlə fəxr edirik.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,*
*UNESCO və İSESCO-nun xoşməramlı səfiri*

İslam həmrəyliyi ancaq İslam aləmi daxilində olan həmrəyliyi nəzərdə tutmur, bu, həmçinin İslam aləmi ilə digər konfessiyalar arasında həmrəyliyin də harmoniyası deməkdir.

**Kamal Abdullayev,**
*Azərbaycan Respublikasının millətlərarası, multikultralizm*
*və dini məsələlər üzrə dövlət müşaviri, akademik*

Tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, xristian, yəhudi və digər dinlərə məxsus məbədlərin bərpası və təmiri, dilindən və dinindən asılı olmayaraq, ölkənin bütün vətəndaşlarının etiqad azadlığının qorunması və dini ehtiyaclarının təmin olunması - bütün bunlar Azərbaycanın dini-mənəvi mühitini əks etdirən real göstəriciləridir.

**Allahşükür Paşazadə,**
*Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam*

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan Qurani-Kərim müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir ədəbi-tarixi mənbədir.

***

İslam onu qəbul etmiş hər hansı bir xalqın gözəl adət və ənənələrini üzvi şəkildə əlaqələndirən, onların inkişafına rəvac verən dindir.

**Vasim Məmmədəliyev,**
*akademik*

İstər dövlətçilik, istər mədəniyyət tariximizə nəzər salarkən islamın həyatımızın ayrılmaz hissəsinə çevrildiyini görürük. Azərbaycanda din dövlətdən ayrıdı. Bu, azərbaycanşünaslığın tərkib hissəsidi. Amma bizim müxtəlif dərsliklərimizdə islamla bağlı müəyyən məlumat verilir. Həmçinin tarix və ədəbiyyat fənlərində din mövzusuna da yer ayrılır.

**Nizami Cəfərov,**
*Azərbaycanda Atatürk Mərkəzinin müdiri,*
*millət vəkili,AMEA müxbir üzvü,professor*

Sivilizasiyaların əsas mərkəzlərindən biri kimi tolerant və multikultural ənənələrə hər zaman sadiq olan respublikamız İslam dünyasında bu və ya digər problemlərin həllində özünəməxsus rola və nüfuza malikdir. Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışı və həmrəyliyi istiqamətində ardıcıl siyasət yürüdür.

***

Əminəm ki, "İslam Həmrəyliyi İli" elan edilən 2017-ci il də ölkəmiz və bütün İslam dünyası üçün uğurlu illərdən biri olacaq, İslam mədəniyyətinin təbliği və təşviqi, ənənələrinin qorunması, İslam dininin olduğu kimi dünya ictimaiyyətinə çatdırılması və ən əsası İslamı gözdən salan dairələrin hərəkətlərinə qarşı arqumentlərin ortaya qoyulması istiqamətində verilən töhfələrlə yadda qalacaqdır.

**Mübariz Qurbanlı,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*

İnsanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışlarından və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, milli vədini əxlaqa söykənərək, xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa

çalışmış, həmin dövrdə bir çox qadağalara baxmayaraq, Novruz, Qurban və Ramazan bayramlarını qeyd etmişdir.

**Hadi Rəcəbli,**
*Milli Məclisin Sosial siyasət komitəsinin sədri,*
*siyasi elmlər doktoru, professor*

Müsəlmanlar öz xilaslarını Quran vasitəsilə və Quranda tapacaqlar.

**Əhməd bəy Ağaoğlu,**
*ictimai xadim, pedaqoq və yazıçı*

# Ədəbiyyat


**Azərbaycan Respublikasının Konstitusiyası**/burax. məsul. E.M.Əfəndiyev.- Bakı: Hüquq ədəbiyyatı, 2011.- 365 s.

**Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu**: 20 avqust 1992-ci il.- Bakı: Qanun, 2011.- 15 s.

**2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəy-liyi İli" elan edilməsi haqqında:** Azərbaycan Respublikası Pre-zidentinin Sərəncamı, 10 yanvar 2017-ci il //Azərbaycan.-2017.- 11 yanvar.- S.5.

***

**Ağayeva, M.** İslam dininin həqiqətləri /M.Ağayeva.- Bakı: Adiloğlu, 2015.- 862 s.

**Cümhuriyyətin və sovet dövrünün Şeyxülislamı**/red. və ön söz müəllifi Ş.A.Paşazadə; tərt. ed. Hacı Anar İsgəndərov və b.- Bakı: Elm və təhsil, 2011.- 183 s.

**Hüseynov, S.** Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik /S.Y.Hüseynov; elmi red. A.Əlizadə.- Bakı: Təknur, 2012.- 175 s.

**İslam əxlaqı**/Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi; ön söz H.Orucov; tərt. ed.: G.İsmayılov, A.Qurbanov, E.Səmədov, E.Salmanov.- Bakı: [s.n.], 2010.- 211 s.

**Qısa İslam ensiklopediyası:** islama dair 1001 termin və xüsu-si ad /nəşrə hazırlayan Dini Araşdırmalar Mərkəzi; layihənin rəh. E.M.Əsgərov; ümumi red. və müəll. heyəti N.Ə.Rəhimov [və b.].- Bakı: Elm və təhsil, 2012.- 319 s.

**Məmmədəliyev, V.** Quran və elm /V.Məmmədəliyev.- Bakı: Qismət, 2006.- 128 s.

**Zeynəddin, N.** Müsəlman kimliyi: İslam əxlaqı işığında /N.Zeynəddin.- Bakı: Nurlar, 2014.- 135 s.

***

**Abdullayev, K.** 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edilməsi "Multikulturalizm ili"nin məntiqi davamıdır /K.Abdullayev//Səs.- 2017.- 14 yanvar.- S.5.

**Əhmədov, Ə.**"İslam Həmrəyliyi İli" Prezident İlham Əliyevin bu məsələyə verdiyi önəmin göstəricisidir: Nazirlər Kabinetində keçirilən müşavirədə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub/Ə.Əhmədov//Azərbaycan.-2017.- 14 yanvar.- S.4.

**Əlizadə, Ş.** "İslam Həmrəyliyi ili"nin əhəmiyyəti və aktuallığı/Ş.Əlizadə//Respublika.-2017.-17 yanvar.- S.3.

**Həbibbəyli, Ə.**2017-ci ildə Azərbaycanın xarici siyasətinin yeni üfüqləri /Ə.Həbibbəyli//Azərbaycan.-2017.- 17 yanvar.- S.1, 4

**2017-ci il Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilib**//Mədəniyyət.-2017.- 11 yanvar.- S.2.

**İslam dini saf bir dindir: "İslam dininin özünə məxsus böyük dəyərləri var"**//Üç nöqtə.-2017.- 24 yanvar.- S.5.

**Qurbanlı, M.**Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir: Dövlət-din münasibətlərinin uğurlu Azərbaycan modeli digər ölkələr üçün də ən mükəmməl örnəkdir /M.Qurbanlı//Azərbaycan.-2017.- 18 yanvar.- S.1, 4.

***

**Вашингтон, И.**Жизнь пророка Мухаммеда/И.Вашингтон; пер. с англ. П.Киреевского.- Москва: Ломоносовъ, 2012.- 217 с.

**Ислам:** иллюстрированная энциклопедия/[авт.-сост. М.Магомерзоев; ред. И.Новикова, Г.Кирпичева, Е.Авадяева; отв. ред. А.Богословский].- Москва: Эксмо, 2011.- 638с.

**Ислам:** краткая история от начала до наших дней/К.Армстронг; [пер. с англ. М.Беловой; науч. ред. пер. П.В.Башарин].- Москва: Эксмо, 2011.- 317 с.

**Ислам:** тысяча лет веры и могущества: перевод с английского /Дж.Блум, Ш.Блэр.- Москва; Санкт-Петербург: Диля, 2010.- 282с.

**Коран:** перевод смыслов и комментарии /пер. с. араб. Э.Р.Кулиев.- [Москва]: [Эксмо], [2014].-807с.

**Мировые религии. Ислам:** Обзор основных мировых религий. Жизнеописания пророков, упомянутых в Священном Коране. Хронологический обзор истории ислама. Предметный указатель аятов Священного Корана /О.Г.Гудратов, Н.О.Гудратовы.- Москва: Санкт-Петербург: Диля, 2008.- 640 с.

**Мусульманские праздники и святыни**/сост. М.Ю.Козырева.- Москва: ОЛМА Медиа Групп, 2013.- 301 с.

***

www.anl.az
www.azerbaijan-news.az
www.heydar-aliyev-foundation.org
www.mct.gov.az
www.qafqazislam.com
www.preslib.az
www.scwra.gov.az

# Mündəricat

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............ 3
Tərtibçidən ............ 5
Giriş ............ 6
İslam dini və onun təbliğində kitabxanaların rolu ............ 11
Əlavələr ............ 27
Ədəbiyyat ............ 36

**“İslam həmrəyliyi ili” və kitabxanalar**
(metodik tövsiyələr)

**Nəşriyyat redaktoru**: *Mehriban Cəfərova*

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57
E-mail: contact@anl.az
URL: www.anl.az

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş:№ 7
Çapa imzalanmışdır: 16.03.2017
Tirajı: 150
Pulsuz